# QISA FİKİRLƏR XƏZİNƏSİ











## Benjamin FRANKLİN:

Səni kim özün qədər addımbaşı aldadıb?

***

Sən uşaqlarına susmağı öyrət, danışmağı özləri öyrənərlər.

***

Müdrikliyin qapısı heç vaxt bağlı olmur.

***

Əgər möhkəm yatmaq istəyirsənsə, yatağa təmiz vicdanla gir.

***

Acgözlüklə xoşbəxtlik heç vaxt qarşılaşmayıb, necə tanış ola bilərdilər?

***

Salamatlığı üçün azadlıqdan keçən kəs nə salamatlığa, nə azadlığa layiqdir.

***

Əxlaqdan məhrum siyasətdə qanunlar nə iş görə bilər ki?!

***

Əlinə tikan batmadan gül toplaya bilməzsən.

***

İnsan iki dəqiqə havasız, iki həftə susuz, üç həftə yeməksiz, ömür boyu səfalətlə yaşaya bilər, ancaq bir an olsun düşünmədən yaşaya bilməz.

***

İntiqam hissiylə yaşayanların yaraları hər zaman təzədir.

***

“Pul hər şeyə qadirdir” deyən kəs pul üçün hər şeyə gedəndir.

***

İnsanlar din sahibi ola-ola, bir belə pisdirlərsə, dinsiz nə olardılar?..

## Tomas CEFFERSON:

Dəhşətli qanunu var təbiətin: azadlıq ağacı vətənpərvərlərin, bir də zülmkarların qanıyla vaxtaşırı suvarılmalıdır.

***

Həqiqətdən qorxmayanın yalandan qorxmağa heç əsası yox.

***

Mənim vətənim – azadlığın olduğu yerdir.

***

Heç nə oxumayan adam bir tək qəzet oxuyandan daha elmlidir.

***

Heç bir nəslin öz qanunlarına gələcək nəsilləri tabe etmək hüququ yoxdur.

***

Əminəm ki, başqasına yaxşılıq edəndə hər kəsin qəlbi şad olur.

***

Uğura möhkəm inanıram. Diqqət eləmişəm; mən çox çalışdıqca bəxtim də çox gətirir.

***

İnsanlarda sərvət artdıqca səmimiyyətin də çoxaldığını görmədim.

Avraam LİNKOLN:

Başımızı bəlaya salan bildiklərimiz yox, doğru sandıqlarımızdır.

***

Bicliklə yaltaqlıq – qan qohumudur.

***

Əgər köləlik hələ də rüsvayçılıq sayılmırsa, onda dünyada rüsvayçılıq deyilən heç nə yoxdur.

***

Göylərə baxaraq varlığın əzəmətini müşahidə eləyib Allaha inanmayanlara mat-məəttəl qalmışam.

***

Heç kimdə elə güclü yaddaş yoxdur ki, yalanı həmişə istədiyi kimi baş tutsun.

***

Kim olur-olsun, haqqın tərəfindəsə, onunla ol. Ta o vaxtacan ki, haqdan yanadır, elə ki başladı yolunu azmağa, ayrıl ondan.

***

Məndən oxuduğum kitablardan ən gözəlinin hansı olduğunu soruşursunuz, söyləyim: Anamdır.

**Otto fon BİSMARK:**

Məğlublara yalnız göz yaşı verəcəyik ki, doyunca ağlaya bilsinlər.

***

Müharibə dövrü, ovdan sonra, bir də seçkilərdən əvvəl olduğu qədər heç vaxt yalan danışmırlar.

***

Bütün el-aləmi tovlayıb aldatmaq istəyirsənsə – doğrunu söylə.

***

Fikrin aldatmaqsa, qısa danış.

***

Axmaqlıq Allah vergisidir, ancaq ondan sui-istifadə etmək də lazım deyil.

***

Gəncliyə üç öyüdüm var: Çalışın, çalışın, çalışın...

## Jan Pol SARTR:

Bir insanın bir başqasına nifrəti bəsdir; o nifrət qonşudan qonşuya keçərək bütün bəşəriyyəti yoluxduracaq.

***

Gün boyu on altı saat işləyə-işləyə müqəddəs olmaq mümkün deyil.

***

Üçüncü Dünya ölkələri mənim fəlsəfəmi anlaya bilməz.

***

Öz-özümdən qaça-qaça yorğun düşdüm.

***

Başqasının dərdinə şərik olmaq üçün insan olmaq yetər, amma başqasının sevincinə şərik olmaq üçün mələk olmaq lazımdır…

***

Həyatda ediləcək o qədər xəta var ki, eyni xətanı təkrarlamaqda israr etməyin bir mənası yoxdur.

## Aliya İZZƏTBEQOVİÇ:

Biz savaşda öldüyümüz zaman deyil, düşmənlərimizə bənzədiyimiz zaman uduzarıq.

***

Tanrısız bir dünya cənnəti qurmaq xülyasına qapılanlar, bu xülyalarının xarabalıqları altında qalmağa məhkumdurlar.

***

Şükürlər olsun ki, tarixə Allah hökm edir.

***

...Bu günədək insanlığın böyük simaları daim eyni əxlaqı aşılamışlar. Əxlaqi həqiqətlər əbədidir.

***

Mənim üçün yer üzündə yaxşı, doğru və gözəl olan nə varsa, adı İSLAMdır.

***

Mən Avropaya başım önə əyili getmirəm. Çünki uşaq, qadın və qoca öldürmədik. Çünki heç bir müqəddəs yerə soxulmadıq. Ancaq onlar bunların hamısını elədilər...

## Herman HESSE:

...Mən bilməmişəm, inanclı olmaq elə sağlam və sevincli olmağın özüymüş...

***

Təhlükəsiz yolla bir tək zəifləri göndərirlər.

***

Təbiətə yaxın olduqca Tanrının sədasını da duyursan...

***

Bir ata övladına burnunu, gözlərini, hətta ağlını irsən ötürə bilir, amma ruhunu verəmməz; ruh hər insanda yenidir.

***

Həyat həvəsi çoxdan sönmüş bir adama dünyanın heç bir təbibi əlac eləyə bilməz.

***

İçində kitablar olmayan bir ev – yerinə nə qədər qiymətli xalı sərilə, divarları nə qədər bahalı rəsmlərlə bəzədilə, yenə yoxsuldur ki yoxsul.

**Xorxe Luis BORXES:**

Mənim xəyalımda cənnət həmişə bir kitabxana kimi canlanıb.

***

Tanrı-taala əvvəlcə xəbərdarlıq etmədən heç kimsəni cəzalandırmır.

***

Meymunlar qəsdən danışmır ki, onları işləməyə məcbur etməsinlər.

***

İki eyni cürə dağ tapammazsan, amma yer üzündə hər yanda düzənliklər eynidir.

***

Oxucum, Allah özü səni uzun-uzadı müqəddimələrdən qorusun.

***

Mənim yerim cəhənnəmdədirsə belə, səma var olsun.

**Ayzek AZİMOV:**

Həyatda məgər suallara cavab axtarmaqdan da gözəl nə isə varmı?!

***

Səni gülümsəməyə vadar edən çöhrədə cazibədar nə isə var.

***

Səhraya çevirdiyimiz Yer üzünü görəndə gələcək nəsillər bizə necə bəraət qazandıracaqlar?

***

İnsan qəribə varlıqdır; heç hansı ümid yeri qalmayanda, baxırsan ki, ümidlənir.

***

Keçmişdə olduğu kimi gələcəkdə də, əminəm ki, kitabı heç nə əvəz etməyəcək.

***

Qalaktika balaca ha deyil; necə yaşamağı özü seçər.

Nils BOR:

Heç vaxt fikrini düşündüyündən daha aydın ifadə etmə.

***

Elə ciddi şeylər var ki, onlara gülməsəniz, olmaz.

***

Əgər beyniniz kvant fizikası ilə qarışmırsa, deməkk, fizikanı anlamamısınız.

***

Bəşəriyyətin iki ən böyük kəşfi olub; biri – Tanrının varlığı, o biri – Tanrının yoxluğu.

***

Söz yox, at nalının uğur gətirməyinə inanmıram. Amma eşitmişəm ki, inanıb-inanmamağına baxmayaraq, o, dadına yetir.

**Riçard FEYNMAN:**

Həqiqət hər zaman güman edilə bildiyindən də sadə olur.

***

Təbiətdə bir sadəlik və bu üzdən də böyük bir gözəllik vardır.

***

Bildiyini anlada bilmirsənsə, deməli, bilmirsən.

***

Buddist dininin bir ata sözüydü: Hər insana cənnətin qapısının açarı verilmişdir; eyni açar cəhənnəmin qapısını da açar.

***

Təbiətin xəyal gücünün insanın xəyal gücündən qat-qat artıq olduğu açıq-aşkardır.

**Vasili NALİMOV:**

Azad fikirlərdən məhrum bir Dünya son dərəcə bayağı və cansıxıcı olardı...

***

Bilmək gərək ki, Yaradılış Sirrə qərq olmuşdur – o sirri açmaq olmaz, buna cəhd eləməyə lüzum da yoxdu. Yalnızca onu qəbul etmək gərək.

***

Dünyanın sirləriylə təmas bizi romantiklərə çevirir.

***

Mən bir tək azadlığa səcdə edirəm.

***

Köləcəsinə itaət deyil, məhz azadlıqdır insanı Allaha yaxınlaşdıran.

**Martin HAYDEGGER:**

Bizi qurtarsa, bir Tanrı qurtara bilər.

***

Ali dəyərlərin çöküşü mənasız və dağıtmağa yönəlmiş yeniləşmə ehtiraslarından baş veribdir.

***

Fəlsəfəylə poeziya əks ucalıqlarda dayanırlar, fəqət anlatdıqları bir-birinin eynidir.

***

“Haydegger” imzasıyla olmasaydı, kimsə bu gün mənim heç bir kitabımı oxumazdı.

***

Ömrüm boyu gözlədim ki, biri gələcək və mən də onunla dərin-dərin söhbətə başlayacağam. Amma o gəlmədi.

**Jan BODRİYAR:**

Hər yer Qərb olan zaman günəş hardan doğacaq?..

***

Amerikanın da bir keçmişi yox,.. bir “dədə-baba yurdu” yox. Qısacası, Amerikanın kökləri ancaq gələcəkdədir.

***

Özü köhnəlməyən məfhum olan modanın təmsil elədiyi nə varsa, hamısı köhnəlməyə və yox olmağa məhkumdur.

***

Hər bir əntiq əşya ona görə gözəldir ki, bizim günlərədək gəlib çıxmışdır.

**Arif Nihat ASYA:**

Qulun olaraq doğulmasaydım, özüm gəlib fəxri qulun olardım, Allahım.

***

Aramızdakılardan biri körpü olmağa razılıq verməsə, qiyamətəcən bu çayın qırağındaca gözləməli olacağıq.

***

İşığın ardınca get! Kölgən arxanca istər gəlsin, istər gəlməsin!

***

Ölülərin çənəsini bağlayırlar ki, burda gördüklərini orda danışmasınlar.

**Rünoske AKUTAQAVA:**

Azadlıq dağ zirvəsindəki hava kimidir – zəiflərçün dözülməz olur.

***

Klassiklərin xoşbəxtliyidir ki, ölüblər. Bizim də, sizin də xoşbəxtliyimiz ondadır ki, onlar ölüblər.

***

Özünü büsbütün məhəbbətə verməkçün ən əvvəl vaxt lazımdır. Yada salın ötənlərin aşiqlərini: Verter, Romeo, Tristan... Hamısı işsiz-gücsüz, avara adamlar idi.

***

Təhlükəli o fikirlərdir ki, beyni düşünməyə məcbur edir.

**Stanislav LEM:**

Adamlar əbədi yaşamaq istəmirlər. Onların istəmədiyi, sadəcə, ölümdür.

***

Əgər cəhənnəm varsa, onda mütləq ora kompüterləşib.

***

Vicdanı tərtəmiz idi, çünki onu heç çalışdırmamışdı.

***

Ulduzlarla planetlərin hər birinə ad verdik, halbuki hamısının, bəlkə də, öz adı vardı.

**Lüdviq VİTGENŞTEYN:**

Allaha inanmaq – həyatın mənası olduğunu anlamaq deməkdir.

***

Mən yeganə fəlsəfə professoruyam ki, Aristoteldən heç vaxt bircə kəlmə də oxumamışam.

***

Sən yalnız söyləyə bildiyini bilirsən. Söyləyəmmirsənsə, deməli, bilmirsən.

**Herbert UELLS:**

Hər vaxt doğrunun tərəfini tut; anlayan olmasa belə, vicdanın çək-çevirindən qurtularsan.

***

Yalanın olduğu yerdə azadlıq ola bilməz.

***

Saatlara və təqvimlərə imkan verməyin ki, həyatın hər anının bir möcüzə olduğu gerçəyini kölgələsin.

**Yulian TUVİM:**

Dünyada, Allah bilir, nə baş verir! Əvvəllər heç vaxt ölməyən adamlar indi başlayırlar ölməyə.

***

Elə yaşamaq lazımdır ki, öz tutuquşunu şəhərin ən sözgəzdirən qadınına satmaqdan qorxmayasan.

***

İnsanlar nəfəs almasa, dünya təngnəfəs olardı.

**Nurəddin TOPÇU:**

İmansızlıq ruhun kainatla bağlarının qoparılmağıdır.



***

Həqiqət ruhun sevgilisidir və bu eşqin övladı düşünməkdir.

***

Ulduzların hərəkətiylə qəlbin gizlin hərəkətlərini eyni qanun idarə edir.

**Klarens DARROU:**

Bu dünyada öz şəxsi azadlığını yalnız başqasının azadlığını müdafiə etməklə qoruya bilərsən.

***

Əgər siz gülmək qabiliyyətindən məhrum olmusunuzsa, demək, düşünmək qabiliyyətini də itirmisiniz.

***

Həqiqət axtarışı, hətta onu heç vaxt tapmasanız belə, sizə azadlıq bəxş elər.

**Tomas ADORNO:**

Bizim əsrdə məsum heç nə yoxdur.

***

Osvensimdən sonra şeir yazmaq – barbarlıqdır.

*Toplayan, tərtib və tərcümə edən:*
**Cəlal BƏYDİLİ**